**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**033/284

**Bakı şəhəri** "20" iyul **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu quş xəstəliyindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2022-2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Moldova Respublikasının Unqeni (Ungheni) rayonunda və Macarıstanın Baç-Kişkun (Bacs-Kiskun), Çonqrad-Çanad (Csongrád-Csanád), Bekeş (Bekes), Haydu-Bihar (Hajdú-Bihar), Noqrad (Nógrád) inzibati ərazi vahidlərində qeydə alınmış yüksək patogen quş qripi (YPQQ) xəstəliyi aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış YPQQ xəstəliyinə görə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, YPQQ xəstəliyinin baş verməsinə görə sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərinə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1.** 2022-ci il 17 may tarixli 033/208 nömrəli qərarla Moldova Respublikasının Unqeni rayonuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 2022-ci il 5 noyabr tarixli 064/239 nömrəli qərarla Macarıstanın Baç-Kişkun inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 2022-ci il 11 noyabr tarixli 066/241 nömrəli qərarla Macarıstanın Çonqrad-Çanad inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 2022-ci il 30 noyabr tarixli 069/244 nömrəli qərarla Macarıstanın Bekeş inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 2022-ci il 21 dekabr tarixli 073/248 nömrəli qərarla Macarıstanın Haydu-Bihar inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 2023-cü il 27 mart tarixli 014/265 nömrəli qərarla Macarıstanın Noqrad inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi • Food Safety Agency of the Republic of Azerbaijan
Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer